# AKTYOR-YAZIÇI



Eşidəndə ki, sevimli aktyorumuz Sadıq İbrahimovun 60 yaşı tamam olur, çöhrəmə səmimi bir sevinc, ılıq bir təbəssüm yayıldı. Və xatirələr məni uzaq illərə apardı: 70-80-cı illərə. O vaxt mən kitabxanaya təzəcə gəlmişdim. Televizor ekranlarından tanıdığım aktyoru da canlı surətdə məhz kitabxanada gördüm. Yadıma ötürmədiyim televiziya tamaşaları, sevimli aktyor və aktrisalara baxdığım günlər düşdü. Bir çox tamaşalarda o aktyorlarla birlikdə Sadıq müəllim də iştirak edirdi. 70-ci illərdə televiziyada gedən tamaşalardan Yusif Şirvaninin eyniadlı hekayəsi əsasında gedən «Ana və qız»da (1976), Musa Qocayevin «Ata laylası»nda (1976), «Qulluqçu»da, «Şərq şəhəri»ndə, Y.Nuşiçin «Nazirin xanımı»nda yaratdığı rollar, ən çox yadda qalan Qoldaninin «Mehmanxana sahibəsi»ndə Fabrisio rolu onu tamaşaçılara sevdirib. Onu həm də qiraətçi-şair kimi də tanıyırdıq. Şairlərin şerlərini özünəməxsus incə diksiya ilə ifa edirdi.

Kitabxanamızın da fəal oxucularından idi. Çox oxuyar, arayırdı. Sadıq müəllimi ciddi xarakterli insan kimi tanısaq da, o eyni zamanda diqqətcil, səmimi, yeri gələndə lirik-komik cəhətləri də olan, ailəcanlı, gözəl ata və ən başlıcası sənətinə, peşəsinə böyük məsuliyyətlə yanaşan sənətkardır.

Görkəmli sənətkarımız çox həssas bir insandır. Onun insanlara, gənclərə aşıladığı müdrik fkirlər, tövsiyələr onun hekayə və povestlərində də öz əksini tapır. Axı, Sadıq müəllim həm də gözəl yazıçıdır. Onun oxucular tərəfindən böyük rəğbətlə qarşılanan «Gözlə məni» (1984), «Nənəm nağıl söyləyəndə» (1987), «Rübailər, Sətirlər...» (1997) kitabları sevilə-sevilə oxunur. Kitablarda toplanan hekayə və povestlərinin əksəriyyətinin mövzusu müasir həyatdan alınmışdır. Böyüklərə hörmət, doğma Vətənə hədsiz məhəbbət, saflıq, düzgünlük, yoldaşlıqda sədaqət, inam, etibar əsərlərinin əsas mövzusunu təşkil edir.

Sevimli aktyorumuz teatr səhnəsində də bir çox yadda qalan rollar oynayıb və oynayır. Bir-birindən fərqli yaratdığı rollar onu xalqa, teatrsevərlərə sevdirib.

Gənclik illərindən Azərbaycan Milli Akademik Dram teatrında çalışan Sadıq müəllimi bu əlamətdar ad günü münasibətilə səmimi qəlbdən təbrik edir, yubilyara uzun ömür, can sağlığı, səhnə fəaliyyətində uğurlar arzulayırıq.

***N. İmranlı***